TURKISH ACADEMIC RESEARCH REVIEW
Türk Akademik Araştırmalar Dergisi
e-ISSN: 2602-2923

# Feriba Vefi'nin "Uçup Giden Bir Kuş" Romanındaki "Bilinç Akışı" Yöntemi, Romanın Sorunları ve Görselleri Hakkında

## *About the Method "Stream of Consciousness" Problematics and İmages in the Novel "My Bird" by Fariba Vafi*


**Öz**

Azerbaycan asıllı İranlı yazar Feriba Vefi'nin (1963) "İran'ın en iyi romanı" seçilen "Uçup Giden Bir Kuş" (Perende-i Men), epik ve bilinç akışı tekniği ile yazılmış bir roman olarak karşımıza çıkmaktadır. Eserde zengin yaşam olayları, karmaşık hikâyeler, İnsanoğlunun kaderi ve karakterler sanatsal bir bakış açısı ile geniş ve kapsamlı bir şekilde yansıtılır. Eserin "bilinç akışı" yöntemiyle sunumu da dikkat çekicidir. "Bilinç akışı" yöntemine dayanan eserde anlatılan olaylar, kahramanın çevredeki dünyayla yüzleşmesi ve ana karakterin düşünceleri arka planında sunulur. Akıldan geçen karışık duygu ve düşünceleri olduğu gibi sunmayı sağlayan şapka teknik olan iç monoloğun, modernizm edebî akımının bir özelliği olduğu açıktır. "Bilinç akışı", 20. yüzyıl modernizm literatüründe kullanılmaya başlayan psikoloji ile ilgili bir yöntem olarak dikkat çekmektedir. Feriba Vefi "Uçup Giden Bir Kuş" romanında kahramanın baştan savma, mantıksız ve gelişigüzel kurulmuş iç monologlarını kullanır. Onun düşüncelerini yazıya döker. Zira bu teknikte olayın kahramanı çoğunlukla düşünceleri, iç monologları ile vardır. "Bilinç akışı"nda kahramanın yaşam yolu, ruhsal arayışları, iç dünyası, kahramanın düşüncelerinde, hayatında karşılaştığı şoklar ve trajik durum, sosyal ve politik durumun çelişkisi açıklığa kavuşturulur ve bir bütün olarak ortaya çıkar. Kahramanın düşüncesine nüfuz eden ayaklanmalar ve trajediler, insanlık sorununun bir parçası olarak yansıtılır. Eserin kahramanının yaşadığı çalkantılar ve aile içi çatışmalar, kahramanın iç dünyasının prizmasından ortaya çıkar. Yazarın sunduğu olayların arka planına karşı okuyucu, roman kahramanının çatışmasına ve çalkantılarına canlı bir tanık olur. Feriba Vefi'nin "Uçup Giden Bir Kuş" romanında kahramanın düşünceleri farklı olaylara farklı yaklaşımları yansıtır. Eserde sunulan "bilinç akışı", farklı zamanların olaylarını temsil eder. Yazar, kahramanın düşünceleriyle farklı zamanların olaylarını aynı anda, yani geçmişle bugünü birleştirerek sunar. "Görece bağımsızlığı oluşturan 53 kısa bölümden oluşan" romanında yazar, hemcinsinin yaşamının yansımasına değinir.


**Anahtar kelimeler:** İranlı yazar, Feriba Vefi, Roman, "Bilinç akışı" yöntemi, Azerbaycan


**Abstract**

Iranian writer of Azerbaijani descent, Feriba Vefi (1963), presents her novel "Uçup Giden Bir Kuş" (Flying Away Bird), chosen as "The Best Novel of Iran", written using epic and stream-of-consciousness techniques. The work vividly portrays a rich tapestry of life events, intricate stories, the fate of humankind, and characters through an artistic lens. The use of the "stream of consciousness" method in the novel's presentation is noteworthy. In the work rooted in the "stream of consciousness" approach, events unfold against the backdrop of the hero's confrontation with the external world and the main character's thoughts. The hat technique, which allows the presentation of tangled feelings and thoughts as they pass through the mind, is clearly a feature of the modernist literary movement. "Stream of consciousness" began drawing attention in 20th-century modernist literature as a method related to psychology. In "Flying Away Bird", Feriba Vefi employs the hero's haphazard, illogical, and arbitrarily constructed inner monologues, pouring out his thoughts onto paper. As this technique predominantly embodies the protagonist through their thoughts and inner monologues. In "stream of consciousness", the hero's life path, spiritual quests, inner world, shocks, and tragic circumstances faced in life, and the contradictions of social and political situations are elucidated and presented as a whole. The rebellions and tragedies penetrating the hero's thoughts are depicted as part of the human condition. The turmoil and familial conflicts experienced by the novel's protagonist emerge through the prism of his inner world. Against the backdrop of the events presented by the author, the reader becomes a vivid witness to the conflicts and upheavals of the novel's hero. In Feriba Vefi's "Flying Away Bird", the hero's thoughts reflect diverse approaches to different events. The "stream of consciousness" in the work represents events of various times. The author presents events from different periods simultaneously through the hero's thoughts, effectively merging the past with the present. In her novel, comprising "53 relatively independent short sections", the author touches upon reflections of her gender's life.


**Keywords:** İranian writer, Fariba Vafi, novel genre, "stream of consciousness" method

**Salide ŞERİFOVA**
Azerbaycan Ulusal Bilimler Akademisi Nizami Genjavi adına Edebiyat Enstitüsü, Azerbaycan Edebiyatı Bağımsızlık Dönemi Anabilim Dalı, Bakü, Azerbaycan / İnstitute of Literature named after Nizami Ganjavi of Azerbaijan National Academy of Sciences, Department of Azerbaijani literature independence period, Baku, Azerbaijan.
s.sharifova@lit.science.az
https://orcid.org/0000-0001-8788-6366
https://ror.org/006m4q736

Makale Türü-Article Type: Araştırma Makalesi/Research Article
Geliş Tarihi/Recieved: 16.04.2023
Kabul Tarihi/Accepted: 16.09.2023
Yayım Tarihi/Date Published: 30.09.2023

***Atıf/Cite as*:** Şerifova, S. (2023). Feriba Vefi'nin "Uçup Giden Bir Kuş" romanındaki "Bilinç Akışı" yöntemi, romanın sorunları ve görselleri hakkında. *Turkish Academic Research Review, 8 (3),* 1140-1150.

***Değerlendirme/Peer-Review:*** Ön İnceleme: İç Hakem (Editörler). İçerik İnceleme: İki Dış Hakem/Çift taraflı körleme. Single anonnymized-One internal (Editorial Board). Double anonymized-Two extarnal.

***Benzerlik Taraması/Plagiarism Checks:*** *Yapıldı-Turnitin/Yes-Turnitin.*

***Yayıncı/Published:*** Published by Mehmet ŞAHİN Since 2016- Akdeniz University, Faculty of Theology, Antalya, 07058 Turkey.

***Etik Beyan/Ethical Statement*:** Bu çalışmanın hazırlanma sürecinde bilimsel ve etik ilkelere uyulduğu ve yararlanılan tüm çalışmaların kaynakçada belirtildiği beyan olunur. / It is declared that scientific and ethical principles have been followed while carrying out and writing this study and that all the sources used have been properly cited. Salide Şerifova.

***Çıkar Çatışması/Conflicts of Interest:*** Çıkar çatışması beyan edilmemiştir. / The author(s) has no conflict of interest to declare.

***Finansman/Grant Support:*** Bu araştırmayı desteklemek için dış fon kullanılmamıştır. / The author(s) acknowledge that they received no external funding in support of this research.

***Etik Bildirim/Complaints:*** turkisharr@gmail.com

***Telif Hakkı & Lisans/Copyright & License:*** Yazarlar dergide yayınlanan çalışmalarının telif hakkına sahiptirler ve çalışmaları **CC BY-NC 4.0** lisansı altında yayımlanmaktadır. / Authors publishing with the journal retain the copyright to their work licensed under the **CC BY-NC 4.0**.

## Giriş

Azərbaycan əsilli İran yazıçısı Fəriba Vəfinin (1963) "İranın ən yaxşı romanı" seçilmiş "Zirzəmi quşu" (Perende-i Men) əsərinin Azərbaycan dilinə tərcümə edilməsi bizlərə yazarın yaradıcılığı ilə yaxından tanış olmağa şərait yaradır. Əsərləri Azərbaycan, türk, rus, ərəb, kürd, italyan, ispan, fransız, alman, yapon, ingilis və s. xarici dillərə tərcümə olunmuş Fəriba Vəfinin ilk romanı olan, Qolşiri, İsfahan və Yəlda ədəbi mükafatlarına layiq görülmüş "Zirzəmi quşu" əsəri ictimaiyyətə 2002-ci ildə təqdim edilmişdir.

### "Şüur axını" metodunun tətbiq edilməsi

Fəriba Vəfinin "Zirzəmi quşu" əsəri epik növün irihəcmli, mürəkkəb janrı olan roman əsasında qələmə alınmışdır. Əsərdə zəngin həyat hadisələri, mürəkkəb əhvalatlar, insan taleləri və xarakterləri bədii lövhələrlə geniş, əhatəli şəkildə əks etdirilir. Əsərin "şüur axını" metodunda təqdim edilməsi də diqqətdən yayınmır. "Şüur axını" metoduna əsaslanan əsərdə təsvir edilən hadisələr əsərin qəhrəmanının ətraf aləmlə qarşıdurması fonunda və baş qəhrəmanın düşüncələrində təqdim edilir. Bəllidir ki, daxili monoloq, ağıldan keçən qarışıq fikir və hisslərin olduğu kimi təqdiminə şərait yaradan ədəbi texnika modernizm ədəbi cərəyanına xasdır. Şüur axını XX əsr modernizm ədəbiyyatında istifadə edilməyə başlayan, psixologiyaya aid üsul kimi diqqəti cəlb edir. Ceyms Coys, Marsel Prust, Vircinia Vulf kimi yazarlar "şüur axını" metodu ilə ədəbiyyatda modernizm üslubunda əsərlər qələmə alırlar. Fəriba Vəfi də "Zirzəmi quşu" romanında səliqəsiz, məntiqsiz və qrammatik qaydalara əməl etmədən qəhrəmanın daxili monoloqlarından istifadə edir. Fəriba Vəfi bu zaman oxucunu düşünməyə vadar edir. Belə ki, "şüur axını" zamanı əsərin qəhrəmanı danışmır, düşünür, oxucu da qəhrəmanın düşüncələri ilə əsərin süjet xəttilə addımlayır. "Şüur axını"nda qəhrəmanın düşüncələrində onların keçdiyi həyat yolu, mənəvi axtarışları, qəhrəmanın iç dünyası, daxili aləmi aydınlaşır, həyatında üzləşdiyi sarsıntılar və faciəli vəziyyət, ictimai-siyasi vəziyyətin ziddiyyəti bütövlükdə açıqlanır. Baş qəhrəmanın düşüncəsinə nüfuz edilmiş sarsıntı və faciələr bəşəri problemin tərkib hissəsi kimi əksini tapır. Əsərin qəhrəmanının həyatda üzləşdiyi sarsıntılar, ailə ziddiyyətləri qəhrəmanın daxili aləminin prizmasından açılır. Oxucu müəllifin təqdim etdiyi hadisələr fonunda əsərin qəhrəmanının qarşıdurmasının və keçirdiyi sarsıntıların canlı şahidinə çevrilir.

Fəriba Vəfinin "Zirzəmi quşu" romanında qəhrəmanın düşüncələri fərqli hadisələrə fərqli yanaşmalarını əks etdirir. Əsərdə təqdim edilən "şüur axını" fərqli zamanlara aid hadisələri ifadə edir. Qəhrəmanın düşüncələri ilə yazıçı fərqli zamanlara aid hadisələri eyni vaxtda, yəni keçmiş və indini birləşdirərək təqdim edir. "Nisbi müstəqillik təşkil edən 53 qısa hissədən ibarət" (Milani, 2018, s. 167) romanda müəllif həmcinsinin həyatını əks etdirməsinə toxunur: "roman individual qadınlığın axtarılması və ortaya çıxarılmasına həsr olunub. Təhkiyəçi qadın həyatını, hisslərini, ətrafını diqqətlə araşdırır və onları bacardığı qədər dəqiqliklə təsvir edir." (Milani, 2018, s. 167)

### Romanın problematikası

Fəriba Vəfinin "Zirzəmi quşu" romanının ideyası ilə sıx əlaqəli olan, daxili birliyini təmin edən mövzu aktuallığı diqqətdən yayınmır. Romanın problematikasında qadın azadlığının təbliğ edilməsi diqqəti əsasən, qadın probleminə yönəltməklə yanaşı, İran cəmiyyətinə etirazını səsləndirir. İlk növbədə, bu qadının azad olmasına səsləyişdə özünü göstərir. Fəriba Vəfi xalqın qan yaddaşına hopmuş o azad, asudə qadını yaşadığı cəmiyyətə qaytarılmasını roman boyu təbliğ edir. "Zirzəmi quşu" romanında müəllif qadınla kölə kimi davranılmasını qabardır: "...Haşimi bəy on dörd yaşlı qızını şallağın altına salıb bir neçə dilin qarışığından ibarət söyüşləri çınqıl

daşları kimi arxa həyətə tökdü." (Milani, 2018). Romanda Haşimi bəyin təsvir edilən hərəkətləri cəmiyyətdə qadınlara qarşı kobud davranan kişilərin ümumiləşdirilmiş hərəkəti kimi təqdim edilir.

Romanın problematikasında qadın azadlığı ilə yanaşı cəmiyyətdə əksini tapmış ictimai-sosial problemlərə də diqqət ayrılır. Romanda uşaqların düzgün tərbiyə olunması, ailə dəyərlərinin qorunması, ailə daxilində özünü büruzə verən xəyanətlərin açıqlanması, insanların gələcəyə bədbin yanaşmaları, cəmiyyətdəki sosial bərabərsizlik, meqapolisdəki ətraf mühiti bürümüş çirkliyin insanların həyat tərzinə cevrilməsi, azadlıq, sevgi və s. məfhumlara fəlsəfi yanaşma və s. kimi aktual məsələlər yer alır. Fəriba Vəfinin əsərin problematikasına çevirə bildiyi mövzuları öz təcrübəsinə, dünyagörüşünə əsaslanaraq, müəyyən həyati materiallar əsasında məqsədə uyğun olaraq aşkara çıxarır. Müəllif dərk etdiyi və qavradığı, keçmişdən götürülmüş hər hansı bir tipik hadisəni dövrü üçün səciyyəvi ola bilən hadisə kimi təqdim edir: "Roman boyunca bu kadının monoton hayatın cenderesinde, geçmişin yükü ve geleceğin bilinmezliği arasında var oluş çabasına, dile getiremediği pişmanlıklarına, endişelerine, çelişki ve özlemlerine tanık oluruz ". (Yıldırım, 2018, s. 52)

Romanın problematikasında azadlıq məfhumuna nəzər saldıqda, azadlığın müxtəlif prizmadan təqdim edilməsini müşahidə edirik. Yazıçı azadlıq məfhumunu yalnız qadın azadlığında məhdudlaşmadığını, geniş dairə diapozonuna malik olmasını təbliğ edir. Romanın problematikasında azadlıq məfhumuna müəllifin özünəməxsus münasibəti bunu əks etdirir. Fəriba Vəfi cəmi əlli kvadradmetr sahəli doqquzuncu evə köçən qadının evdəki sərbəstliyini azadlıqla qarışdırmasında aydınlıq gətirir: "Azadlığı bütün ruhumla hiss edirəm. Onu dilə gətirəndə isə Əmir bu cür mühüm kəlməni kiçik və dəyərsiz hisslərlə bağlı işlətməyimə qarşı çıxır. Onunçün azadlıq bəşəri məna kəsb edir. Eləcə də tarixi bir anlamı var". (Vəfi, 2018, s. 11)

Müəllif romanın problematikasında azadlıq məfhumuna bəzən açıq-aydın şəkildə, bəzən üstü örtülü şəkildə münasibət bildirir. Yaşadığı ölkəni dünyanın üçüncü ölkələrindən biri hesab etməsi məqamına toxununan müəllif azadlıq haqqında düşüncələrini oxucusuna çatdırır: "Üçüncü dünya ölkələrinin birində, səsli-küylü bir məhəllənin əlli kvadratmetrlik əyri-üyrü bir daxmasında... Ah, mən axı necə bu qədər nadan ola bilərəm?" (Vəfi, 2018, s. 12)

Romanın problematikasında doğma Vətəndən uzaqlara getmək, orada azad həyat yaşamaq istəyən insanların düşüncələrinin yer alması diqqətdən yayınmır. Vətənində yaşamaq istəməyən, Kanada sevdalısı olan Əmirin azadlığını tikanlı məftillərdən keçə biləcəyində görməsi fəlsəfi anlam kəsb edir. Müəllif insanların azadlıq istəklərini vətəndən qaçmaqlarında görməsini milli faciə kimi qabardır. Romanda bu cür "qaçış"lar Əmirin simasında açıqlanır:

"Əmir bir neçə il bundan qabaq Bakıdan Türkiyəyə, oradan da Yunanıstan sərhədlərinə qədər gedib çıxa bilmışdi...

Türkiyə-Yunanıstan sərhəddində bədəninə batan məftillərin ağrısının keçməsi üçün uzun illər lazım oldu. "Ax, o tikanlı məftillərə qurban olum. Bir dəfə də o tikanlı məftillərdən keçə bilsəm, hər şey bitəcək. Arxama belə baxmaram". (Vəfi, 2018, s. 23)

Əsərdə Vətəninin tikanlı məftillərlə əhatə olunmasının təsviri xalqın azadlıqdan məhrum olmasına bir işarədir.

Fəriba Vəfi qəhrəmanlarının həyatlarını istədikləri kimi yaşaya bilməmələrini onların dialoqlarında oxucusuna çatdırır. Müəllif pəncərə qarşısında pərdə aralığından küçəyə baxan Əmirin özünü bədbəxt adlandırmasında, “Bədbəxt mənəm. Dünyaya bu deşikdən baxıram” (Vəfi, 2018, s. 76) kimi düşüncələrində əksini tapır. Qəhrəmanın dünyaya deşikdən baxması məcazi anlamda olsa da, reallığı əks etdirir.

Əsərin mövzusunda qəhrəmanın öz doğma Vətənində iki hiss arasında qalmasının qabardılması da diqqətdən yayınmır. İki hiss arasında vurnuxan insanın hisslərini əks etdirən müəllif insanın öz köklərindən qopub naməlum bir yerə yerləşmək qorxusunu deyil, doğma yurd-yuvanı tərk edib getmək qorxusunu oxucusuna çatdırır. Əmirin doğma elindən qaçmağa cəhdi öz kökünü, öz tarixi keçmişini bəyənməməsi deyil, yaşadığı ölkəsində onun əhatə edən sıxıntılardan, talesizliklərdən uzaqlaşmaq istəyidir. Müəllif insanların məhvinə yol açmış sosial, maddi, mənəvi sıxıntıları əsərin problematikasının ana xəttinə çevirir. Sosial, maddi, mənəvi sıxıntılardan doğma ocaqlardan qaçmaqla canlarını qurtarmalarına cəhd etmələri Əmirin simasında ümumiləşdirlmiş şəkildə təqdim edilir: “Gedəcəyəm Kanadaya – xilas olacağam”. Dalana dirənən kimi bu sözləri deyir. Kanada bir tərəfdə, talesizliklər, sıxıntılar digər tərəfdə”. (Vəfi, 2018, s. 22) Yazıçı qəhrəmanının həyatını sıxıntılar içərisində olmasını, nicatını isə Kanadaya qaçmaqda görməsini təqdim etməklə oxucusunu düşünməyə vadar edir. Cəmiyyətdəki sosial, maddi və mənəvi sıxıntıların yerində həll edilməsinə çağırış edir. Qəhrəmanının tez-tez “Kanada”ya getmək arzusunu səsləndirməklə, nicatı bunda axtarılmasının yanlış olduğunu göstərməyə nail olur.

Fəriba Vəfi Kanadaya getməyi əsarətdən qurtarmağın yolu kimi dəyərləndirsə də, bu xilas olmanın ailə dəyərlərinin məhv olmasının başlanğıcı kimi də təqdim edir. Əmirə oğlu Şahinin etirazında müəllif bunu əks etdirir: “Kanadaya gedək, daha sən məni vura bilməyəcəksən. Polisə xəbər verəcəyəm”. (Vəfi, 2018, s. 24) Müəllif ailədə şiddətin olması faktını acı bir reallıq kimi təqdim etsə də, övladın doğma atasını polisə təslim etmək hədəsi və ya bu cür düşünməsi ilə, xarici qüvvələrin ailə münasibətlərinə, valideyn övlad münasibətlərinə və s. müdaxilə etməsini açıqlayır.

Müəllif romanın problematikasında ailə dəyərlərinə müxtəlif münasibətin olması amilini qabardır. Ailə dəyərləri müəllifin uşaqların düzgün tərbiyə edilməsinə çağırışında da əksini tapır. Roman boyu müəllif uşaqların körpəlikdən düzgün tərbiyə edilməsini təbliğ edir. Uşaqlara qarşı şiddəti onların tərbiyəsinə müsbət təsir etməməsinə toxunur: “...Uşaqlar kötəklə böyüməz. Uşaqlar təhqirlə böyüməz. Boy atar, amma əsla böyüməzlər”. (Vəfi, 2018, s. 88)

Əsərdə ailədə qız övladı üçün keçirilən narahatçılıq, onu uşaq vaxtından özünü qorumağa çağırış və s. kimi məqamlar ailə dəyərlərindən irəli gəlməsini əks etdirir. Müəllif əsərdə ananın qızı Şadiyə dedikləri sözlərdə bu məqama aydınlıq gətirir: “Gərək Şadiyə ehtiyatlı olmağı öyrədim. Ola bilər, kimsə ona nəvaziş göstərsin. Dünyada yüz cürə nəvaziş növü var, gərək fərqləndirməyi bacarsın. Ona demək istəyirəm ki, binaya gəlib-gedən, yaşca böyük oğlan uşaqlarına qarşı diqqətli olsun”. (Vəfi, 2018, s. 25)

Müəllif ailə dəyərlərinin zəiflədiyi təqdirdə baş verə biləcək faciələrə diqqət yönəldir. Əsərdə ailə dəyərlərinin zəifləməsini müəllif adi bir cümlə ilə izah edir: “Atam yataq xəstəsi olandan sonra anamın inildəmələri daha da artdı. Artıq elə bil qəsdən inildəyirdi. Bu, inildəmə deyil, ah-nalə idi. Nifrət idi”. (Vəfi, 2018, s. 34) Və yaxud “Atam zirzəmiyə pənah aparıb ömrünün sonuna kimi orada yaşadı”. (Vəfi, 2018, s. 34) Xəstə insanın zirzəmidə yaşaması məhz ailə dəyərlərinin sarsıldığının nəticəsi kimi özünü göstərir. Müəllif hətta atanın

zirzəmidə tənhalıqda ölməsini ailə dəyərlərinin sarsıldığının nəticəsi kimi təqdim edir: "Atam öləndə də biz bilmirdik. Düşünürdük ki, hələ sağdır, amma o zirzəmidəcə ölmüşdü; tənhalıqda". (Vəfi, 2018, s. 72)

Müəllif vətəndaşlara olan təzyiqləri, məhz onların azadlıqlarının əllərindən alınması kimi dəyərləndirir. Bu təzyiqlərə insanların biganə qalmadıqlarını və etiraz etmələrini bədii dillə əks etdirir: "Burda qalıb çürüyəcəksən. Heç birinizin gələcəyi yoxdur. Nə sənin, nə uşaqların. Başa düşürsən?" (Vəfi, 2018, s. 40) Müəllif sual ünvanlandırmaqla bu məsələyə hamı tərəfindən eyni yanaşılmadığına, eyni cür qəbul edilmədiyinə toxunur. Yazıçı Əmirin verdiyi sualda bu məqamı qabardır: "...məgər dünyanın bugünkü halı ürəyincədir? Cavab ver! Yaxşıdır? Başını qınına elə soxmusan ki, başqa dünyaların olduğunu da yaddan çıxarmısan. Sənin yaşadığın həyat həyat deyil ki". (Vəfi, 2018, s. 42)

Romanın problematikasında gələcəyə bədbin baxışın yer alması təəssüf doğursa da, həyatın reallığı kimi özünü göstərir. Müəllif əsərdə qəhrəmanını azadlıq, xilas olmaq arzusu ilə çaba etdiyini açıqlayır. Paralel şəkildə də gələcəyə bədbin baxışlarını əks etdirir. Əsərdə qəhrəmanın ziddiyyətlər içərisində qalması roman boyu özünü göstərir. "Gələcək nədir?" sualına əsərin qəhrəmanının verdiyi cavablar oxucunu düşündürür: "Gələcək gərək ki, Əmirin parkda mənə göstərdiyi rəngi avazımış, kağız parçası kimi büzüşmüş qarıya bənzəyir. Gələcək haqqında düşünə bilmirəm. Nə olduğunu, nədən yarandığını bilmirəm". (Vəfi, 2018, s. 84) Müəllif qəhrəmanını gələcək haqqında düşünməkdən məhrum olmasını ictimai bir bəla kimi göstərir.

Müəllif əsərin qəhrəmanının daim ziddiyyətlər, anlaşılmazlıqlar içərisində qalması faktını da üzə çıxarır. Məsələn, "mən nə ana kimi anayam, nə həyat yoldaşı, nə də ki, övlad. Mən heç nəyəm. Mənə verilən heç bir vəzifənin öhdəsindən gələ bilmirəm. ...Mövcudluğum heç bir məna kəsb etmirdi" (Vəfi, 2018, s. 89) deyən bir insanın düşüncələri ilə onun keçirdiyi hisslər, bu hisslər arasında itib-batması təqdim edilir. Özünü və yerini həyatda, cəmiyyətdə tapa bilməyən insanın qətiyyətsizliyi də əksini tapır.

Romanın problematikasında cəmiyyətdəki sosial bərabərsizliklər də təqdim edilir. İnsanların özlərinin güzəranlarını qismən yaxşılaşdırmaq üçün banklardan faizlə aldıqları pulların qarşılığında bir qula çevrilmələri faktı acı reallıq kimi əksini tapır: "...Əmir quldur. Bundan sonrakı iyirmi illik iş qüvvəsini belə banka satmış bir qul. Əmir iyirmi il banka borclu qalacaq. Bank iş qüvvəsini ondan satın alıb". (Vəfi, 2018, s. 54) Yazıçı əsərdə insanların məcburiyyət qarşında qalmalarını cəmiyyətin naqisliyini, həmçinin hakimiyyətin vətəndaşlarına qarşı biganəliyini əks etdirir.

Əsərin problematikasında sinfi bərabərsizlik qabardılır. Müəllif cəmiyyətdə insanlara ikili yanaşmanı açıqlayır və bunu cəmiyyətin qüsuru kimi göstərir. Fəriba Vəfi azadlıq üçün ölkəsindən xaricə getmək arzusu ilə yaşayan Əmirin gerçəkləşə bilməməyəcəyi arzusunu özünəməxsus şəkildə açıqlayır: "Ora da getsən qulsan, fərqi yoxdur... Çünki sən bu dünyaya qul olaraq gəlmisən. Atan kim olub?" (Vəfi, 2018, s. 55) "Atan kim olub?" sualını ünvanlayan müəllif bununla oxucusuna cəmiyyətdə baş verən biganəliklərlə bərabər, ikili yanaşmaları əks etdirir. Məsul vəzifədə çalışanlar, imkanı olanlar öz övladlarını, öz dairələrinə yaxın olan şəxsləri, onların "dairə"sinə daxil olmalarına, cəmiyyətdə mövqe tutmalarına imkan yaratmalarını, onları vəzifə pillələrində yuxarı qalxmalarına yardım etmələrini əks etdirir. "Atan kim olub?" sualına Əmirin "Mənim atam çox zəhmətkeş və şərəfli bir adam idi" cavabı da bunu bir daha təsdiq edir.

Əsərin problematikasında Fəriba Vəfi bir qadın kimi sevgi məfhumuna da münasibətini bildirir. Sevgi haqqında fikirlərini qeyri-müəyyən şəkildə təqdim etməsi diqqəti cəlb edir. Əsərin qəhrəmanının əri Əmirə "boş

ver bunları. Yaxşı bir şey danış; nəsə sevgiylə bağlı bir şey" kimi istəyinə verilən cavabda qəti bir münasibət əks etdirilmir: "Sevgi? Hardadır sevgi? Hər yerdə iyrənclik, saxtakarlıq". (Vəfi, 2018, s. 21)

Müəllif sevgi üzərində qurulmayan ailələrin faciəsini romanda aktuallıq kəsb edən mövzulardan birinə çevirir. Fəriba Vəfi qadınların erkən yaşlarda evlənmələrini bir şəxsin, qadının faciəsi kimi deyil, cəmiyyətin, millətin faciəsi kimi təqdim edir. Məhbub xalanın ərə getməsi məqamını açıqlayan müəllif qızların ər, ailə məfhumlarını başa düşməmələri kimi təqdim edir:

"Məhbub xala deyir ki, "mən yalnız dodaq boyası sürtmək eşqiylə Cəfərə ərə getdim."

Cəfər onun birinci əri idi.

- Dedilər evlənməsən, dodağını boyaya bilməzsən.

Anamsa bilmir nəyə görə atamın arvadı olub.

- Bir gün məni atana verdilər. Onun ikinci atam olduğunu zənn elədim; təbii ki, mən də onun qızı olmalıydım. Biri böyrümdən dümsükləyib dedi ki, dəli, o, atan-zad deyil. Ərindir". (Vəfi, 2018, s. 43)

Müəllif kiçik yaşlı qızların ataları yaşda kişilərlə evləndirilmə epizodunu təqdim etməklə, bu əməllərin iyrənc olmasına da aydınlıq gətirir.

Fəriba Vəfi kişilərin evlilik haqqında düşüncələrini də əsərin mövzusunda açıqlayır. Onların evləndikləri qadınların etiraz səslərini yüksəltmələrini, özlərinə məxsus fikir və mövqeləri olmalarını həyat yollarında qarşılarına çıxan daş kimi dəyərləndirmələrini təqdim edir. Fəriba Vəfi bunu Əmirin dili ilə təqdim edir: "Səninlə evlənən gün sənə dedim ki, mən yoldaş istəyirəm, yoluma daş yox!" (Vəfi, 2018, s. 43)

Fəriba Vəfi romanda Mənijənin "hardaydı eşq" sualına "çarəsiz, bədbəxt insanlar bir-birini tapıb münasibət qurur, adını qoyur eşq. Bu daha çox əxlaqsızlıqdır, nəinki eşq" kimi cavablandırması oxucunu düşündürməyə vadar edir. Müəllif insanları qurduqları münasibətləri müxtəlif cür, həmçinin eşq adlandırmalarını qabardır.

Fəriba Vəfi əsərdə sevginin yalnız qadın və kişi arasında olan sevgidən ibarət olmadığını, sevginin müxtəlif ola bilməsini açıqlayır. Əsərdə ana sevgisini əks etdirən müəllif, bunu qəhrəmanının düşüncələri ilə təqdim edir:

"İndi öz evimizdəyik. Öz-özümə uşaqlar böyüyənədək burada qalaram deyirəm. Heç bir yerə getmərik. Bu dörd divar arasında yaşayarıq. Üçümüz. ...Bu mənim həyatımdır və bu iki uşaq yalnız mənə məxsusdur. İndi nə cür davam etməyin bütün məsuliyyəti öz üzərimdədir". (Vəfi, 2018, s. 130)

Fəriba Vəfinin qəhrəmanı bir ana kimi analıq məsuliyyətini nə danır, nə də onu ilahiləşdirir:

"Əsərin əvvəllərində təhkiyəçi iki övladının qayğısını çəkən yeganə adam olmağa etiraz etsə də, sonradan o, analığın nə əzabverici, nə də həyatın əsas qayəsi olduğu qənaətinə gəlir. O öz analıq məsuliyyətindən nə narazılıq edir, nə də analığı romantikləşdirir". (Milani, 2018, s. 167)

Fəriba Vəfi romanda təhkiyəçi qadının özünü övladlarına həsr etməsini vurğulayır: "...həyatın ağır şərtlərinə dözən, ailə qurduqdan sonra sevginin öləzmək həqiqəti ilə barışıb bütün gücünü övladlarının tərbiyəsinə həsr edən qadından söhbət gedir." (Milani, 2018, s. 167)

Müəllif əsərində qadınların ailə dəyərlərini qiymətləndirməməsi, ailələrinə xəyanət etməsi kimi faktlara toxunur. Əmirin Hüseynin arvadı Mənijənin xəyanət etməsini anlamaması, arvadına ünvanladığı fikirlərdə əks etdirməyə cəhd özünü göstərir: "...İki dənə gül kimi qızı. O gözəllikdə ev-eşik. Hüseyni də ki, Allahın bəndəsi bütün ömrünü evinə, ailəsinə həsr edib. Bəs niyə bu axmaq arvad..." (Vəfi, 2018, s. 46)

Maraqlı məqam müəllif tərəfindən düşüncələrlə də xəyanət edilməsinin mümkün olmasının vurğulanması, ailəsinə xəyanət edilməsinin göstərilməsidir:

"Gündə yüz dəfə onu aldatdığım fərqində deyil. Gündə yüz dəfə bu həyatdan kənara çıxıram. Evindən heç bir zaman uzaqlaşmamış bir qadının qorxusuyla, yavaş-yavaş, aram-aram, səssiz-səmirsiz Əmirin heç xəyalına da gətirə bilməyəcəyi gizlin yerə gedirəm. Sonra tövbəkar bir qadının peşmançılığıyla gecənin qaranlığında, bu gün olduğu kimi evimə, Əmirin yanına qayıdıram". (Vəfi, 2018, s. 47-48)

Müəllif bununla da ömür-gün yoldaşı tərəfindən qayğı, diqqət görmədiyi zamanı cismən də olmasa, xəyalən xəyanət etməsini göstərir. Bununla da, qadını xəyanətə sürükləyənin məhz ailə başçısının olması ilə yanaşı, qarşı tərəfə olan diqqətsizlik, biganəlilik ucbatından baş verməsini əks etdirir.

Müəllif Məhbubun əri Qədirin baldızı qızına olan münasibəti əks etdirməsi körpə yaşlı qızların təcavüzə məruz qalmaları kimi təqdim edir. Düzdür, biz əsərin qəhrəmanını təcavüzə məruz qalmadığını, lakin Qədirin bu düşüncədə olmasını müəllifin təqdim etdiyi epizodda şahidi oluruq:

"...Ona çay gətirəndə biləyimdən yapışıb tüstü dolu nəfəsini üzümə səpələyirdi.

- Əmini çox istəmirsən?

- İstəyirəm.

Göz qırpdı.

- Bəs niyə məndən qaçırsan?

- Qaçmıram.

Bir addım geri çəkildim". (Vəfi, 2018, s. 62)

Bu dialoqda Fəriba Vəfi Qədirin fikrindən keçirdiklərini əks etdirir.

Yazıçı Əmirin ömür-gün yoldaşını və övladlarını atıb Bakıya getməsini ailəyə xəyanət kimi dəyərləndirir. Fəriba Vəfi "Əmirin quşu Bakıdadır. Ondan öncə gedib onu gözləyir" deməklə, Əmirin ailəsinə xəyanətinin səbəbini də açıqlayır. Doğma yurddan getməyi, ailədən uzaqlaşmağı problemlərdən azad olmağın yeganə çıxış yolu kimi görən Əmirin geri dönməyəcəyi də müəllif tərəfindən Əmirin öz sözləri ilə təqdim edilir: "Sən də həyatını yaşa. Mənə bu qədər bağlı olma". (Vəfi, 2018, s. 97)

Meqapolisdəki ətraf mühiti bürüyən çirkliyi təsvir edən müəllif bunu insanlara dövlət qayğısının təcəssümü kimi göstərir. Müəllif dövlətin cəmiyyətin qayğısına qalmamasını xalqına etinasızlığı kimi təqdim edir: "...Ayağının altına baxa-baxa yerisən, ancaq çirk görə bilərsən. Səkiləri çox çirklidir. ...Hisli-paslı damlar, zivələrdən asılan, yuyulmuşa oxşamayan pal-paltarın mənzərəsi. Göydələnlərlə alçaqmərtəbəli binalar bir-birinə yapışıb".

**Romanda obrazlar**

Hər hansı bir əsərdə bədii obraz ilk növbədə, özünəməxsus spesifik inikas və idrak üsulunu səciyyələndirir. Bədii obraz əsərdə yaradıcılıqla təcəssüm etdirilir. Fəriba Vəfinin "Zirzəmi quşu" romanında gerçəkliyi estetik ideal mövqeyindən əks etdirməyin forması olan obraz bədii ümumiləşdirmənin nəticəsi kimi özünü əks etdirir. Fəriba Vəfinin əsərindəki obrazlar fərdin, həmçinin cəmiyyətin mahiyyətinin təzahürünü əks etdirən obrazlı təfəkkürün əsasında dayanması ilə fərqlənir.

Fəriba Vəfinin "Zirzəmi quşu" romanında obraz özündə estetik dəyər təmsil edərək insan həyatının real lövhələrinin bədii təsvirini əks etdirir. Romanda təqdim edilən obrazlar müəllif ideyalarının və bədii təfəkkürünün təzahür formalarından biri kimi özünü göstərir. Fəriba Vəfinin təqdim etdiyi obrazlar təqdim edilən obrazların mahiyyətini, təsvir edilən əşyaların vəziyyətlərini təsvir edir. Fəriba Vəfinin təqdim etdiyi obrazlar fərdi cizgiləri ilə digər obrazlardan fərqli cəhət və fərdi xüsusiyyətlərini də açıqlayır. Məsələn, Fəriba Vəfi əsərin baş qəhrəmanını bir müəllif kimi özü təqdim edir. Onun təqdimatında qəhrəmanın obrazı gerçəkliklə sənətkar arasında özünəməxsus dialoq kimi təzahür edir. Müəllifin obrazları yazıçı duyumu, fantaziyası və s. subyektiv amillərlə bilavasitə əlaqəli şəkildə göz önündə canlanır: "Əsər birinci şəxsin adından yazılmışdır. Bu, həyat yoldaşı, iki uşağı ilə birlikdə yaşayan və müəllif ilə bioqrafik cəhətdən bəzi ümumi cəhətləri olan 35 yaşlı adsız qadın obrazıdır". (Milani, 2018, s. 167)

Obraz anlayışı məhdud və geniş mənada işlənilə bilir. Obraz məhdud mənada konkret və eyni zamanda ümumiləşdirilmiş şəxs bildirir, yalnız konkret personajları və ya ədəbi qəhrəmanları əks etdirir. Geniş mənada isə mənfi və müsbət obrazlarda, insan obrazında, əşya obrazında və s. rast gəlirik. Fəriba Vəfinin "Zirzəmi quşu" romanında da obrazlar qalereyası özünün məhdud və geniş mənada təqdim edilməsi ilə diqqəti cəlb edir. Romanda obraz səviyyəsinə yüksəldilmiş kölgə obrazı geniş mənada təqdim edilən obraz kimi maraq kəsb edir. Müəllif kölgəni obraz səviyyəsinə yüksəldir: "...Kölgələr divarda rəqs edirdilər. Onları ruhlarla qarışdırırdım". Və ya

"İri kölgə bir anda bütün asimanı çənginə alan bulud topasıtək əvvəlki kölgəni vücuduyla qapadı. Sonra geri çəkildi. Kiçik kölgə ona yaxınlaşdı. Kölgənin bu dəfə başı yerində idi. Bir anlığa yuxarısında başı bitən yekəqarın adama bənzədi. ...Kimin kölgələri olur olsun, indi onlar mənə məxsusdur. Sahibləri öz kölgələrindən bixəbərdilər". (Vəfi, 2018, s. 59)

Müəllif zirzəmini də geniş mənada işlənilən obraz səviyyəsində təqdim edir. Atanın zirzəmiyə atılması, zirzəmidə tənhalıqda ölməsi və s. epizodlarda zirzəmi obraz səviyyəsinə yüksəldilir. Oxucunun yaddaşına hopan zirzəmi həm insanın nicat məkanı kimi, həm də doğmalarından təcrid olunma məkanı kimi təqdim edilir: "Zirzəmini sevirəm. Bəzən ora qayıtmaq istəyirəm. Arabir mənə elə gəlir ki, yer səthində enə biləcəyim yeganə yer oradır. Bir xeyli müddətdir ki, içimdə bir zirzəmi daşıdığımın fərqinə varmışam." (Vəfi, 2018, s. 157)

"...Zirzəmi daha məni qorxutmur. Ora getmək istəyirəm. Bu dəfə açıq gözlərlə, qorxmadan" (Vəfi, 2018, s. 157) cümləsi ilə müəllif zirzəmini qəhrəmanının nicat məkanı kimi düşünməsini əks etdirir. Fəriba Vəfinin romanında məkan anlayışları fərqli şəkildə təqdim edilir. Müəllif məkanı əsas element kimi təqdim etmir, xarici aləmi təsvir etmək üçün məkana müraciət edir. Müəllif məkan vasitəsilə nəyisə simvolizə etməyə cəhd edir. Bu da yazıçının məkana konkret bir funksiya yükləməsini göstərir. Fəriba Vəfi zirzəmini yer altında olan məkan kimi insanların qaranlıq aləmləri ilə eyniləşdirir. Fəriba Vəfinin protaqonist qəhrəmanı ictimai problemlərlə qarşılaşan, iç dünyası ilə yaşamağa çalışan, cəmiyyətdən və ya həyatdan uzaq olmağa çalışan, özgələşmiş modern dünya insanları kimi diqqəti cəlb edir.

Yazıçı-əsər-oxucu triadasında müəllif tərəfindən obrazların müqayisə edilərək təqdim edilməsi də diqqətdən yayınmır. Müəllif yaratdığı bədii obrazı təcəssümün formasından asılı olaraq, təsviri, əyani və s. şəkildə təqdim edir. Fəriba Vəfinin ananı qütb ayısı ilə müqayisə etməsi obrazın çılpaqlığı ilə təqdim edilməsi məqamını güdür:

"...Qütb ayısı yorğanın altında yuxulayıb. Qütb ayısı uşaqlara nağıl danışır. Onlara mərci şorbası bişirir. Axşamüstü oynamaq üçün həyətə çıxarır.

Qütb ayısının hövsələsi daralır. Uşaqlara daim göz-qulaq olmaqdan bezir... Qütb ayısı səbəbsiz, durduq yerə uşaqlara qışqırır". (Vəfi, 2018, s. 88)

Fəriba Vəfi insan ömrünün su kimi axıb getməsini obraz səviyyəsinə yüksəldir. "Zirzəmi quşu" romanında insan ömrünü canlı bir varlıq kimi əks etdirir. Müəllif bununla da bədii obrazın daha geniş anlayış və hadisələri ifadə edə bilməsini qabardır. Yazıçı bir yerdə otuz iki il kirayənişin yaşamış insan ömrünü göz önündə canlandırmaqla insanların mənəvi həyatını, keçirdiyi hissləri göstərir. Həyata gələsən, lakin ömrü boyu özünün balaca bir evin, doğma oçağın olmasın. Müəllif bununla da insanların bu fani dünyada yerlərini tapa bilməmələrini qabardır. Müəllif romanda qaranlığı, qorxunu əsərinin qəhrəmanından ayrılmayan bir obraz kimi təqdim edir: "...həmişə qaranlıqdan boylanıb yalnız kölgələr, ruhlar görmüşəm. Axı qorxu gözümü kor edib, nifrət nəfəsimi kəsəndə başqa nə görə bilərdim ki?" (Vəfi, 2018, s. 157)

Fəriba Vəfi qısa cümlələrlə qonşuluq münasibətlərini, öz istəkləri ilə başqalarını bezdirən insan obrazlarını da yaradır. Məsələn, qır-qızılı yerində olan, imkanlı bir insanın tez-tez qonşusunu narahat etməsini insanlardakı mənəviyyatsızlığa aydınlıq gətirməklə, mənfi xüsusiyyətləri özündə birləşdirən ümumiləşdirilmiş obraz kimi təqdim edir:

"Sənə qurban, bir neçə soğanın olmaz?

Bir neçə baş soğan gətirib qapını bağlayıram.

- Buyur! Boynu qır-qızılla dolu, ənliyi-kirşanı yerində, üz-gözünü bəzəyib, hər gün "qurban sənə, bir neçə dənə soğan, bir neçə dənə kartof, bir kasa yağ..." (Vəfi, 2018, s. 66)

Müəllif cəmiyyətdə mövcud olan cılız adamların mənfi xüsusiyyətlərini çılpaqlığı ilə əks etdirir. Fəriba Vəfi bu epizodla oxucunu düşünməyə vadar edir: Şəhərdə yaşayan, maddi vəziyyətdən sıxıntılı olan ailə nə qədər soğan almalıdır ki, imkanlı qonşu qapısını döyüb ondan bir deyil, bir neçə soğan istəməyi özünə rəva bilsin?

Əsərdə diqqəti cəlb edən obrazlardan biri də ümumiləşdirilmiş ana obrazının təqdimidir. Müəllif əsərdə ana obrazını müxtəlif aspektdən təqdim edir. Bu həm ailəsini sevən qadın, həm də ailəsinə biganə qalan qadın obrazlarının təsvirində özünü göstərir. Müəllif ailə dəyərlərini öz şəxsi istəklərindən üstün tutan qadınların ümumiləşdirilmiş obrazını yaradır. Hər şeydən, hətta belə həyatdan, həyat yoldaşı Əmirdən bezməsini dilə gətirməməklə ailəsini qorumağa cəhd edən qadının hərəkəti ailə dəyərlərinin qorunması kimi dəyərləndirilir:

"Bezdim. Göbəyin yerinə düşsün.

Bunu çox gec söylədim.

- Hər şeydən, bu həyatdan.

... Demək istəyirəm: "Səndən də".

Amma demirəm. Bu sözü demək hər şeyi alt-üst edər..." (Vəfi, 2018, s. 67)

Əsərdə ailənin dağılmaması üçün, onun qorunmasına cəhd edən qadınların çabaları qadının böyüklüyünü əks etdirir. Müəllif ailəsinin dağılmaması üçün fikrindən keçirdiklərini dilə gətirməyən qadının ailəsini qoruması ilə yanaşı cəmiyyətdə tək qala bilməsi qorxusunu əks etdirir. "Uçup Giden Bir Kuş romanı, aile ocağını korumak için her türlü fedakârlığa hazır olan İranlı bir kadının hayatından bir kesit sunmaktadır". (Yıldırım, 2018, s. 53) Qadının ziddiyyətlər içərisində vurxunması bunu tam şəkildə əks etdirir. Həm ailə dəyərlərini qorumağa cəhdi, həm də əsarətdən xilas olmağa çalışması, bu iki ziddiyyət arasında vurxunması İran cəmiyyətindəki qadınların mübarizə aparmağa qadir olmalarını əks etdirir. Əsərin qəhrəmanının düşüncəsi qadının keçirdiyi hissləri əks etdirməklə obrazını canlandırır: "...Amma ondan bezdiyimi hiss etdiyim üçün özümü günahkar hesab edirəm. Hara gedirəmsə kölgə kimi məni izləyən, mənə bacıdan daha yaxın olan bu hissə lənət olsun!" (Vəfi, 2018, s. 67)

Müəllif əsərdə ailəsini ana sevgisindən məhrum edən qadın obrazlarına da yer ayırır. Belə qadınlara əsərdə təsvir edilən müxtəlif epizodlarda aydınlıq gətirilir. Qadının ana sevgisindən məhrum etdiyi ailənin, övladların pərişanlığı adsız qəhrəmanın dili ilə təqdim edilir:

"Mən yapışqanam. Anamsa əksinə. Atam həmişə ona, "gözəl, amma adamayovuşmaz", - deyirdi.

Heç vaxt heç nəyə yovuşmadı. Nə atama, nə evə, nə də övladlarına. Yanında oturanda da dəli olurdu". (Vəfi, 2018, s. 106)

Müəllif qəhrəmanın anasının daşürəkli olması faktına biganə qalmır: "...Öz rəhmsizliyinin, daşürəkli olmağının bədəlini ödəyir. İndi gör o necə öləcək. O kişidən də betər öləcək. ...Yazıq!" (Vəfi, 2018, s. 151) Fəriba Vəfi bir qadının daşürəkli olması faktını ərinə zülm etməsi epizodunda açıqlayır. Bu amil yalnız qadının kişiyə olan münasibətini deyil, həm də ailə daxilində ər-arvad münasibətlərinin laxlanmasını, insanların bir-birinə dəyər verməmələrini də əks etdirir.

Fəriba Vəfi əsərində ananın, qadının böyük bir qüvvə olmasını daim təlqin edir. Onun qadın obrazları həm müsbət, həm də mənfi xüsusiyyətlərə malikdir. Ancaq mənfi və müsbət qadın obrazlarını bir məqam birləşdirir: "Ana". Müəllif ana adını daşıyan qadınların bu adı eyni cür daşıya bilmədiklərini incəliklə açıqlayır. Əsərin qəhrəmanının anası Şəhlaya bənzəməməsi ilə qürur duyması, dünyaya gətirdiyi qızının isə özünə bənzəməməsini istəməsi əsərdə əksini tapması diqqətdən yayınmır:

"Qadın ana rolunda da rahat deyil. Uşaqlarının inkişafından daim qayğılıdır. Öz anasının uşaqlıqda göstərdiyi laqeydlikdən sarsılıb, bu onun xatirəsində qorxu qarışıq üzüntülər buraxıb. İndi həmin şeylərin öz qızında olmaması üçün qoruyucu ana rolunu artırıb, qızını hər addımda başa salır, özü kimi qorxaq və titrək böyüməsini istəmir və bunun üçün səy göstərir". (Mumoğlu)

Yazıçı qadın obrazlarını təqdim edərkən, onların müti olmadığını, azadlıq hissi ilə alışıb yanmalarını açıqlayır. Müəllif mübariz olmaq istəyən və qorxular içində çırpınan qadının hisslərini də oxucusuna çatdırır. "Qızım mənə bənzəsə özümə nifrət edərəm" (Vəfi, 2018, s. 52) deyən ananın fikrini izah etməsi də qaranlıq məqamlara aydınlıq gətirir:

"Mən daim qaranlıqdan, zirzəmidən, kölgələrdən qorxmuşam. ...Yavaş-yavaş özümdən də gizlənməyə başladım və bir gün özümdən kim olduğumu soruşmağa məcbur oldum. Mən itmək duyğusuyla böyüdüm. Zərrə qədər də olsun tapılmaq ümidi olmayan bu dərin duyğunun içində". (Vəfi, 2018, s. 52)

**Sonuç**

"Tibet arzusu", "Səhnənin dərinliklərində" (Dar Omq-e-sahneh), "Dalandakı sirr" (Râzî Dar Kucehâ), "Villaya olan yolda" (Dar Râh-i Veylân), "Ay tamamlanır" (Mâh-i Kâmel Mishavad ), "Hamısı üfüqdə" (Hame-ye Ofoq), "Sondan sonra" (Baa"d Az Pâyân), "Küləksiz, avarsız" (Bi Baad Bi Parou), "Hətta güldüyümüz vaxtda" (Hatta Vaqti Mikhandidim), "LiBeratur prize" ədəbi mükafatına layiq görülmüş, "Tərlan", Huşəng Gülşiri mükafatı ilə təltif edilmiş "Tibet rüyası" (Râyâ-yi Tebbet) və s. kimi əsərlər və kitabların müəllifi Fəriba Vəfinin yaradıcılığı ictimaiyyətə yaxından tanıdılmalıdır. Obrazların düşüncələrini müəyyən və məntiqi ardıcıllıq yaratmadan, müdaxilə etmədən ardıcıl şəkildə oxucuya çatdıra bilən "Zirzəmi quşu" (Perende-i Men) əsəri təsdiq edir ki, Fəriba Vəfi imzası oxucuların sevimli və əsərlərini sevə-sevə oxuya biləcəkləri yazardır.

**Kaynakça | References**

Milani, F. (2018). Sözardı. Fəriba Vəfi və onun quşu: qələmlərə və lələklərə dair // Fəriba Vəfi. Zirzəmi quşu. Bakı, "Parlaq imzalar" Nəşriyyatı.

Mumoğlu, C. Fəriba Vəfinin ilk romanında qəhrəmanın özünüdərk problemi // https://www.ceylanmumoglu.com/az/article/feriba-vefinin-ilk-romaninda-qehremanin-ozunuderk-problemi

Vəfi, F. Zirzəmi quşu. (2018). Bakı, "Parlaq imzalar" Nəşriyyatı.

Yıldırım, S. (2018). Feriba Vefi'nin uçup giden bir kuş romanında kadın kimliği. NÜSHA Şarkiyat Araştırmaları Dergisi, 47, 45-64.